

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 41 (22.952)

*1 mart 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahimin etimadnaməsini qəbul edib.

Adel İbrahim Ahmed İbrahim etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Azərbaycanın çox gözəl ölkə olduğunu deyən Adel İbrahim Ahmed İbrahim hər iki ölkə rəhbərliyinin dəstəyi ilə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyev ölkəmizin Misirlə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və bu ölkə ilə daha yaxın tərəfdaşlıq əlaqələrinin qurulmasına önəm verdiyini deyib. İki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Misirin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda qarşılıqlı dəstək nümayiş etdirdiklərini vurğulayıb. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün iqtisadi sahədə daha çox işlərin görülməsinin vacibliyini qeyd edən dövlətimizin başçısı bu sahədə böyük imkanların mövcud olduğunu bildirib.

## Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı

Muxtar respublikada iqtisadi potensialın gücləndirilməsi, sosial sahənin inkişafı istiqamətində yeni istehsal və xidmət sahələri yaradılır, səmərəli məşğulluq təmin edilir.

Həyata keçirilən tədbirlər bütün yaşayış məntəqələrini əhatə etməklə yanaşı, muxtar respublikanın paytaxtının da müasirliyə qovuşmasına, inkişafına, günü-gündən çiçəklənməsinə şərait yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"ın icrası da Naxçıvan şəhərində yeni iş yerlərinin yaradılmasına, kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin artırılmasına, ümumilikdə, dinamik inkişafa təkan vermişdir.

Əldə olunmuş uğurlar, qazanılmış nailiyyətlər ümumi inkişafı əks etdirən makroiqtisadi göstəricilərin artım tempini təmin etmiş, 2007-ci illə müqayisədə ümumi məhsul istehsalı 7,4 dəfə artaraq 2017-ci ildə 1 milyard 809 milyon 889 min manat təşkil etmişdir. Muxtar respublika üzrə ümumi məhsul istehsalının 52,6 faizi Naxçıvan şəhərində qeydə alınmışdır.

Güclü iqtisadiyyatın yaradılmasında mühüm yer tutan sənayedə 2017-ci ildə 707 milyon 412 min manatlıq məhsul istehsal olunmuşdur ki, bu da 2007-ci illə müqayisədə 11,5 dəfə çoxdur.

*Sənaye məhsulu istehsalı, min manat*




2017-ci ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun 73,2 faizi Naxçıvan şəhərinin payına düşmüşdür. Yeni sənaye müəssisələrinin yaradılması əhalinin keyfiyyətli yerli məhsullarla təminatında xüsusi rol oynamaqla yanaşı, ən əsası səmərəli məşğulluğu təmin etmişdir. Belə ki, 2017-ci ildə sənaye sahəsində çalışanların sayı 2007-ci illə müqayisədə 2,2 dəfə artaraq 7128 nəfər, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 2,4 dəfə artaraq 429,6 manat təşkil etmişdir.

Naxçıvan şəhərində infrastruktur quruculuğu tədbirləri çərçivəsində 2017-ci ildə əsas kapitala vəsait qoyuluşu 669 milyon 247 min manat olmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 5,8 dəfə çoxdur.

*Əsas kapitala vəsait qoyuluşu, min manat*






Ümumilikdə, 2007-2017-ci illər ərzində Naxçıvan şəhərində əsas kapitala vəsait qoyuluşlarının dəyəri 5 milyon 162 min manat təşkil etmişdir ki, bunun da 87,4 faizi və ya 4 milyon 511 min manatı tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

Vəsait qoyuluşları çərçivəsində ötən dövrdə Naxçıvan şəhərində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Dövlət Statistika Komitəsinin inzibati binaları, "Naxçıvan" Universitetində yeni universitet şəhərciyi, Naxçıvan Dövlət Universitetinin Xəstəxanası və Baytarlıq təbabəti ixtisasının binası, İqtisadiyyat fakültəsi üçün korpus, Uşaq Musiqi və İncəsənət Məktəbi, Naxçıvan Muxtar Respublika Mərkəzi Xəstəxanası, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi, Şahmat Mərkəzi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Dövlət Bayrağı Meydanı və Muzeyi, Xatirə Muzeyi olmaqla, 48 elm və təhsil ocağı, o cümlədən 11832 şagird yerlik 14 ümumtəhsil məktəbi, 10 uşaq bağçası, 6 uşaq musiqi məktəbi, 18 səhiyyə obyekti, 36 mədəniyyət obyekti, 8 idman obyekti, 70 inzibati bina, 500-ə yaxın istehsal, xidmət və digər infrastruktur obyektləri tikilmiş və ya yenidən qurulmuşdur.

Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir.

Tələbata uyğun olaraq yeni yaşayış binalarının tikintisi və əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində Əziz Əliyev küçəsində və "57-ci" məhəllədə yeni yaşayış kompleksləri, Heydər Əliyev prospektində və Atatürk küçəsində yeni yaşayış binaları olmaqla, ümumilikdə, son 10 ildə 25 yaşayış binası tikilmiş, 100 yaşayış binası yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur. Bundan əlavə, 2017-ci ildə əhalinin şəxsi vəsaiti hesabına 266,9 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2007-ci ildəki göstəricidən 8,4 dəfə çoxdur. 2017-ci ildə Naxçıvan şəhərində əhalinin şəxsi vəsaiti hesabına istifadəyə verilmiş yaşayış sahəsi muxtar respublika üzrə ümumi göstəricinin 70,7 faizini təşkil etmişdir.

Ötən dövrdə aparılmış məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan şəhərində kənd təsərrüfatı sahəsinin inkişafı təmin edilmiş, əkin dövriyyəsinin həcmi artırılmış, yeni heyvandarlıq təsərrüfatları yaradılmışdır.

2017-ci ildə Naxçıvan şəhərində kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 2095 hektar olmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 5 dəfə çoxdur. "Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərinin və Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" 2009-cu il 9 iyun tarixli Azərbaycan Respublikasının Qanununa əsasən Babək rayonunun 5 kəndinin Naxçıvan şəhərinin tərkibinə daxil olması ümumi inkişafa təsir edən amillərdən biri olmuşdur. 2017-ci ildə əkin sahələrindən 2696 ton dənli və dənli-paxlalılar, 58 ton dən üçün qarğıdalı, 18 ton dən üçün günəbaxan, 358 ton kartof, 3548 ton tərəvəz, 2220 ton bostan məhsulları istehsal edilmişdir. Bundan əlavə, 2017-ci ildə 1201 ton meyvə və 113,5 ton üzüm istehsal olunmuşdur. 2007-ci illə müqayisədə bütün məhsullar üzrə artım qeydə alınmışdır.

1 yanvar 2018-ci il tarixə Naxçıvan şəhərində qaramalın sayı 3897, qoyun və keçilərin sayı isə 19162 baş olmuşdur ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 5,1 və 3,8 dəfə çoxdur.

Mal-qaranın baş sayının artımı ilə yanaşı, cins tərkibinin yaxşılaşdırılması da heyvandarlıq məhsullarının qənaətbəxş artımını təmin etmişdir. Belə ki, 2017-ci ildə Naxçıvan şəhərində 828,6 ton ət, 1396 ton süd, 3 milyon 234 min ədəd yumurta, 25,1 ton yun istehsal edilmişdir. Bundan əlavə, balıqçılığın və arıçılığın inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmiş, məhsul bolluğu yaradılmışdır.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi kimi 2017-ci ildə Naxçıvan şəhərində 13 milyon 68 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 10,3 dəfə çoxdur. Muxtar respublikada istehsal olunmuş kənd təsərrüfatı məhsulunun 2,9 faizi Naxçıvan şəhərinin payına düşmüşdür.

*Kənd təsərrüfatı məhsulu istehsalı, min manat*




Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə Naxçıvan şəhərində yeni avtobuslar marşruta buraxılmış, avtomobil, hava və dəmir yolu nəqliyyatında mühüm tədbirlər həyata keçirilmişdir. 2017-ci ildə nəqliyyat sektorunda yük daşınması 2007-ci illə müqayisədə 2,3 dəfə artaraq 6235,3 min tona, sərnişin daşınması 2,7 dəfə artaraq 50083,5 min nəfərə çatmışdır. Bu dövr ərzində yük və sərnişin daşınmasından, bütövlükdə, 28 milyon 726 min manat gəlir əldə edilmişdir ki, bu da 2007-ci ildəki göstəricidən 2,2 dəfə çoxdur.

*Ardı 2-ci səhifədə*

İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi bu sahə üzrə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirmişdir. 2017-ci ildə Naxçıvan şəhərində informasiya və rabitə xidmətlərinin dəyəri 2007-ci illə müqayisədə 4,3 dəfə artaraq 23 milyon 472 min manat təşkil etmişdir ki, bu da muxtar respublika üzrə ümumi rabitə xidmətlərinin 47,2 faizini təşkil etmişdir.

İqtisadi və sosial sahələrdə qazanılmış uğurlar yeni iş yerlərinin açılmasına geniş imkan yaratmış, 2008-ci ildən 1 yanvar 2018-ci il tarixədək Naxçıvan şəhərində 19355 yeni iş yeri yaradılmışdır ki, bunun da 17200-ü və ya 88,9 faizi daimi iş yeridir. Naxçıvan şəhərində 1 yanvar 2018-ci il tarixə məşğul əhalinin sayı 53,7 min nəfər olmuşdur ki, bu da muxtar respublika üzrə ümumi məşğul əhalinin 22,8 faizini təşkil etmişdir. 2017-ci ildə Naxçıvan şəhərində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 2007-ci ildəki göstəricini 2,7 dəfə üstələyərək 438 manata çatmışdır. Naxçıvan şəhərində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi muxtar respublika üzrə müvafiq göstəricidən 18 manat çox olmuşdur.

Səmərəli məşğulluq imkanlarının yaradılması əhali gəlirlərinin artmasına və onun alıcılıq qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Naxçıvan şəhərində 2017-ci ildə istehlak bazarında əhaliyə 805 milyon 559 min 400 manat dəyərində istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 6 dəfə çoxdur.

*Pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manat*




2017-ci ildə istehlak bazarında satılmış məhsulların 734 milyon 181 min 700 manatı pərakəndə əmtəə dövriyyəsinin, 71 milyon 377 min 700 manatı isə ödənişli xidmətlərin payına düşmüşdür ki, bu da 2007-ci ildəki müvafiq göstəricilərdən 6,1 və 5,2 dəfə çoxdur.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, Naxçıvan şəhərində əhalinin sayı 1 yanvar 2018-ci il tarixə 92970 nəfər olmuşdur ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 28 faiz çoxdur.

Aparılan təhlillərin ümumiləşdirilmiş yekunu göstərir ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq bütün sahələrdə qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün həyata keçirilən tədbirlər Naxçıvan şəhərinin tarazlı və dinamik inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə zəmin yaratmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Muxtar respublikada təqaüd və müavinətlər artımla ödəniləcək

***Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə vətəndaşlara ödənilən təqaüd və sosial müavinətlərin artırılması da əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən işlərin davamıdır.***

Ölkə başçısının 2018-ci il fevralın 19-da, 20-də və 22-də imzaladığı fərman və sərəncamlara uyğun olaraq şəhid ailələrinə, müharibə əlillərinə, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olanların, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə, sosial müavinət alan birinci qrup əlillərə ödənilən Prezident təqaüdlərinin məbləği mart ayının 1-dən etibarən 10 faiz artımla ödəniləcəkdir. Bundan əlavə, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün Prezident təqaüdünün aylıq məbləği 1300 manatdan 1500 manata, Prezidentin fərdi təqaüdü isə 1300 manatdan 1450 manata qaldırılıb.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli digər Sərəncamına uyğun olaraq 2018-ci il martın 1-dən etibarən fəxri adlara görə təqaüdlərin də məbləği artırılmışdır. Sərəncama görə "Xalq" fəxri adı alanlara 150 manat, "Əməkdar" fəxri adı alanlara isə 100 manat ödəniləcəkdir. Dövlət başçısının 2018-ci il 23 fevral tarixli sərəncamları ilə yaşa görə, ailə başçısını itirməyə və əlilliyə görə sosial müavinət alanlara, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, müharibə veteranlarına, aztəminatlı ailələrdəki 1 yaşınadək uşaqlara, beşdən çox uşağı olan qadınlara və sosial müavinətlər haqqında qanunvericilikdə nəzərdə tutulan digər şəxslərə ödənilən aylıq müavinətlər, həmçinin uşağın doğulmasına görə, radiasiya qəzası nəticəsində zərərçəkmiş şəxslərə müalicə üçün, habelə dəfn üçün verilən birdəfəlik müavinətlər 2018-ci il martın 1-dən 10 faiz artımla ödəniləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 23 fevral tarixli Sərəncamına əsasən isə muxtar respublikanın fəxri adlarına görə aylıq təqaüdün məbləği artırılaraq 50 manat müəyyən edilib.

Qeyd olunan artımlar muxtar respublikada, ümumilikdə, 15 min 176 nəfəri əhatə edəcəkdir. Bu məqsədlə dövlət büdcəsindən orta hesabla 1 milyon 100 manata yaxın əlavə vəsaitin ayrılması təmin olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Abadlaşan yurd yerlərimiz*

## Ərəbyengicə müasir Azərbaycan kəndinə çevrilmişdir



***Muxtar respublikanın ən böyük rayonlarından olan Şərur tarixin bütün dövrlərini əks etdirən abidələrlə zəngin qədim yurd yerlərimizdən biridir. Bu abidələrə daha çox rast gəlinən ünvanlar içərisində Arpaçay vadisi xüsusi mövqeyə malikdir. Burada Daş dövrünü özündə yaşadan Qazma mağarasından tutmuş Eneolit, Tunc, Dəmir dövrləri, həmçinin Antik dövr də daxil olmaqla, müxtəlif nekropollar, yaşayış yerləri, maddi-mədəniyyət nümunələri də yurd yerinin qədimliyindən soraq verir. 1984-1986-cı illərdə və 2008-ci ildə arxeoloqlar Abbas Seyidov və Vəli Baxşəliyev tərəfindən aparılmış qazıntılar zamanı ərazidə Erkən Tunc dövrünə aid sürtgəc, keramikadan ibarət yerüstü materiallar, dən daşları tapılıb.***

Bir qədər sonra Vəli Baxşəliyevin rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Arpaçay vadisində Ərəbyengicə yaşayış yerini tədqiq edib, maraqlı elmi nəticələrə gəlinib. 0,8 hektar sahəni əhatə edən yaşayış yerində dən daşları, sürtgəc, keramikadan hazırlanmış materiallar tapılıb.

2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinin arxeoloji ekspedisiyası tədqiqatların coğrafiyasını bir qədər də genişləndirib. Burada Erkən Tunc dövrünə aid olan keramika, sümük, müxtəlifformalı tikili qalıqları, ocaq yerləri, əmək alətləri, Orta Tunc dövrü qəbir abidələri aşkara çıxarılıb.

"Torpaq, yurd qədri bilən, öz keçmişinə ehtiramla yanaşan ərəbyengicəlilər yaşadıqları kəndin qədim tarixi ilə qürur duyur, bu tarixi tədqiq edib üzə çıxaran arxeoloqların çətin və xeyirxah əməyini unutmurlar. Artıq Ərəbyengicə də ölkəmizin belə müasirliyə qovuşan yaşayış yerlərindən biridir". Bu sözləri kompleks quruculuq tədbirləri çərçivəsində inşa olunaraq Ərəbyengicə kənd tam orta məktəbinin müəllim və şagird kollektivinin istifadəsinə verilmiş təhsil ocağının direktoru Valeh Şükürov deyir. Məktəbin pedaqoji kollektivinin hələ də yeni binanın sevincini yaşadığı diqqətimdən yayınmır. Nə isə demək istədiyini hiss etdiyim yaşlı bir müəllimə söhbətə qoşulur:

– Yeni binanın açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dedi ki, məktəbdə bütün fənlər üzrə müəllimlər fəaliyyət göstərir, intizam var, tədris müəllim tələbkarlığı və şagird çalışqanlığı üzərində qurulub. Məqsəd ondan ibarətdir ki, gənclərimiz dövlətimizin yaratdığı bu şəraitdən istifadə edərək özlərinə düzgün həyat yolu seçsinlər, peşə öyrənsinlər. Bu gün ölkəmizin dəyərli, təhsilli, tərbiyəli və vətənpərvər gənclərə ehtiyacı vardır. Çünki Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlətin isə ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Vətəndaş da o zaman qiymətli hesab olunur ki, o, təhsilli, tərbiyəli və vətənpərvərdir. Bütün bunlar isə məktəbdə hazırlanır. Ona görə də kollektiv üzərinə düşən vəzifələri uğurla yerinə yetirməli, ölkəmiz üçün dəyərli vətəndaşlar hazırlamalıdır.

Ali Məclis Sədrinin bu sözləri bizi işimizi bu istiqamətdə qurmağa, uğurlarımızı daha da artırmağa ruhlandırır. Öyrənirəm ki, o, bu təhsil ocağında uzun illərdir, çalışan Səmayə Rəhimovadır.

Səmayə müəllimənin söhbətinə digər bir müəllim Saleh Şükürov qüvvət verir:

– Artıq Ərəbyengicə muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrilib. Yollarımız yenilənib. Yeni məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası qədim yaşayış məntəqəsi olan Ərəbyengicənin simasına yeni çalarlar gətirib. Kənd sakinlərini çox sevindirən amillər içərisində fasiləsiz olaraq elektrik və qaz təminatının, rabitə xidmətinin, sürətli internetə çıxış imkanlarının da yaradılmasını xüsusi vurğulamaq lazımdır. Kəndimizin sakinləri tarixən əkinçilik və heyvandarlıqla məşğul olublar. Bunun üçün məhsuldar torpaqlarımız var, su sarıdan heç bir çətinlik çəkmirik. Yeni istifadəyə verilən obyektlər isə hamımızı öz adını dövlətimizin doğrultduğu kənddə qurulub-yaradılanları qorumağa, təsərrüfatda daha böyük uğurlar qazanmağa səvq edib.

68 şagirdin təhsil aldığı 3 mərtəbədən ibarət olan məktəb 208 şagird yerlikdir. Bu da onu göstərir ki, məktəbin tikintisində kəndin uzunmüddətli perspektivi nəzərə alınıb. Təhsil ocağının binasında 2-si elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, 17 kompüterin quraşdırıldığı kompüter otağı, müəllimlər otağı, 2710 kitab fonduna malik olan kitabxana və idman zalı vardır.

Müasir arxitektura üslubunda inşa olunmuş təhsil ocağında güclü maarifçilik ənənələri yaradılıb. Bu gün də həmin ənənələr qorunub saxlanılır. Bunun ifadəsidir ki, ötən tədris ilində məktəbi bitirib ali məktəblərə qəbul olan məzunlardan biri 500-700 intervalında bal toplayıb.

Kənd mərkəzi muxtar respublikamızda mahiyyət və məzmunca yeni obyekt olmaqla, artıq regionun bir sıra yaşayış məntəqələrində ayrı-ayrı funksiyalar yerinə yetirən dövlət qurumlarının bir ünvanda fəaliyyətini təmin etmək üçün inşa edilir. Belə ünvandan artıq ərəbyengicəlilər də istifadə etmək imkanı qazanıblar. Burada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, statistika otağı və 56 yerlik zal yerləşir. Hər birində müasir iş şəraiti yaradılan otaqlar yeni avadanlıqlarla təchiz olunub.

Rabitə evində 288 yerlik yeni nəsil ATS quraşdırılıb, burada poçt bölməsi fəaliyyətə başlayıb. İnternetə çıxış imkanları yaxşılaşdırılıb. Hazırda kənddə 36 internet istifadəçisi vardır. Onu da qeyd edək ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclis Sədrinin 2018-ci ildən etibarən pensiyaçıların istəkləri nəzərə alınmaqla pensiyaların kənd yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi barədə aidiyyəti qurumlara verdiyi tapşırıq burada da diqqət mərkəzində saxlanılır.

Yaxınlıqdakı yeni bina isə Ərəbyengicə kənd həkim ambulatoriyasıdır. Ambulatoriyanın baş həkim əvəzi Səadət Cəlilova deyir ki, kəndimizdə səhiyyə ocağı üçün belə bir binanın tikilməsi insanların sağlamlığına göstərilən qayğının ifadəsidir.

Səadət Cəlilovanın sözlərinə görə, burada baş həkim, stomatoloq üçün kabinə, palata, doğuş, peyvənd, mama, qeydiyyat, səhiyyə maarifi mərkəzi, manipulyasiya, tibb bacısı otağı, fizioterapiya kabinəsi və aptek kənd sakinlərinin istifadəsindədir. Ambulatoriya müasir tibbi avadanlıqlarla təchiz edilib.

Baş həkim əvəzi deyir ki, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar təşkil olunmuş səhiyyə maarifi mərkəzində maarifləndirici stendlərdən, müxtəlif məlumat kitabçalarından istifadə etmək imkanları yaradılıb.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, dərzi otağı və iki anbar yerləşir. Ərzaq mağazasında ailə təsərrüfatı məhsullarından ibarət ayrıca satış bölməsi yaradılıb.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Məzahir Əliyev deyir ki, bu gün Ərəbyengicədə 284 təsərrüfatda 1030 sakin yaşayır. Onların bütün problemləri aradan qaldırılıb. İstifadəyə verilən yeni sosial obyektlər kənddə şəhər rahatlığı yaradıb.

Ərəbyengicənin yol infrastrukturu da tamamilə yenidən qurulub. 10,8 kilometr yola asfalt örtük salınıb, 6,7 kilometr yol isə hamarlanıb. Yolun üzərində 25 su keçidi qoyulub, 280 metrlik beton kanal çəkilib. Rabitə sistemi də müasirləşdirilib, 800 metr fiber-optik kabel xətti çəkilib, 9 kilometrə yaxın rabitə xətləri təmir olunub. Kənddə 500 metrlik elektrik və 384 metrlik yeni qaz xətləri də çəkilib, mövcud elektrik və qaz xətlərində bərpa işləri aparılıb.

Kənd meydanında ikibir, üçbir söhbətləşən ərəbyengicəlilər onlar üçün yaradılmış şəraitdən razılıqlarını bildirdilər.

Kənd sakini Rəhim Məhərrəmov dedi ki, ikinci qrup əliləm. Muxtar respublikada insan amilinə göstərilən qayğını bir daha gördüm. Ərəbyengicədə görülən bu həcmdə iş kənd adamlarına bəxş etdiyi sevincdən mənə ikiqat pay düşür. Həyətimə hasar çəkilib, uçulub-dağılmaqda olan bəzi tikililərim yenidən qurularaq istifadəmizə verilib. Bütün bunlara görə ailəmiz adından Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

Yeni obyektlərin açılış mərasimindən sonra Ali Məclis Sədrinin sakinlərlə görüşü onların hafizəsindən silinməyəcək. Görüşdə Ali Məclisin Sədri deyib: ***"Quruculuq işlərindən sonra Ərəbyengicə müasir Azərbaycan kəndinə çevrilmişdir. Bu gün kəndlərin abadlaşması rayonların, rayonların abadlaşması isə ölkəmizin abadlaşması və inkişafı deməkdir. Kəndlərdə görülən bu işlər insanların rahatlığının təmin olunmasına hesablanıb. Uşaqlar müasir məktəbdə təhsil alacaq, dövlət qurumları lazımi şərait olan binada fəaliyyət göstərəcək, sakinlərə hərtərəfli xidmət göstəriləcəkdir. Bütün bunlar ölkəmizin iqtisadi inkişafının göstəricisidir".***

**Muxtar MƏMMƏDOV**

*1 mart Ümumdünya Mülki Müdafiə Günüdür*

# Muxtar respublikada mülki müdafiə tədbirləri uğurla reallaşdırılır

***Hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir.***

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mülki müdafiə sisteminin formalaşdırılması yolunda qətiyyətli addımlar atılmış, mühafizə işini müasir tələblər səviyyəsində qurmağa imkan verən bir çox normativ-hüquqi sənədlər qəbul olunmuşdur. Sonrakı dövrdə isə ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə mülki müdafiə sistemi daha da təkmilləşdirilmiş, təbii və texnogen fəlakətlərdən əhalinin etibarlı şəkildə mühafizəsinin təşkili üçün konkret addımlar atılmışdır. 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", həmin il dekabrın 30-da isə "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında əhalinin təhlükəsiz şəraitdə yaşaması üçün həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Ölkə başçısının müvafiq sərəncamı ilə 2005-ci il dekabrın 16-da Azərbaycanda Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsası qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addımdır. Ötən illər ərzində böyük inkişaf yolu keçmiş Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək rayon şöbələri, 2014-cü ildə isə Sədərək rayon şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır.

Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmişdir. Muxtar respublika ərazisində xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilkin yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin təşkili üçün zəruri addımlar atılmışdır. Nazirliyin mühüm fəaliyyət sahələrindən biri olan aviasiya manqasının fəaliyyətinin təmin olunması məqsədilə vertolyot alınıb gətirilmiş və Mülki Müdafiə Alayının təlim mərkəzində vertolyot meydançası tikilmişdir.

Muxtar respublika ərazisində baş vermiş təbii, texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və "112" qaynar telefon xətti yaradılmışdır. Bundan başqa, tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin nəzdində mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazları ilə təchiz edilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, Naxçıvan şəhərində nazirliyin zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2016-cı il martın 17-də "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın nəşri haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası" nəşr olunmuşdur. Altı bölmədən ibarət olan atlasda təbii resurslardan səmərəli istifadə, əhalinin yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, qaz kəmərlərinin, kommunikasiya xətlərinin, digər infrastruktur obyektlərinin mühafizəsi, təbii fəlakətlərin, texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilmişdir. Eyni zamanda atlasda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilmişdir.

Fövqəladə hallar zamanı təxliyə olunan əhalinin və zərərçəkənlərin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi, habelə ehtimal olunan radioaktiv, kimyəvi və bioloji zəhərlənmələr zamanı əhaliyə vaxtında fərdi mühafizə vasitələrinin paylanması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Mülki Müdafiə Alayında mülki müdafiə səfərbərlik ehtiyat anbarı yaradılmış, Naxçıvan şəhərində, Şərur, Babək, Culfa, Ordubad və Sədərək rayonlarında yaşayış binalarının zirzəmiləri təmir edilərək fərdi mühafizə vasitələri anbarı kimi uyğunlaşdırılmış və əhalinin yaş kateqoriyasına uyğun mühafizə vasitələri tədarük olunaraq şəhər və rayon fövqəladə hallar komissiyalarına təhvil verilmişdir. Muxtar respublika ərazisində radioaktiv, kimyəvi və bioloji çirklənmə şəraitində nazirliyin mülki müdafiə qüvvələrinin fəaliyyət göstərməsi üçün müasirtipli radiasiya axtarış və ölçü cihazları alınıb gətirilmiş, bu cihazlarla işləyən mütəxəssislər treninqlərdə iştirak edərək müvafiq sertifikatlar almışlar.

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda əhalinin təhlükəsizliyinin təmin edilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar 15 ictimai yaşayış binasının zirzəmisi əsaslı təmir edilmiş, 225 yaşayış binasının zirzəmisi təmizlənərək yararlı hala salınmışdır. Həmçinin içməli su mənbələrində monitorinqlər keçirilərək sanitar-gigiyena norma və qaydalarına əməl edilməsinə nəzarət olunmuş, çay hövzələrində selə qarşı tikilən bəndlərin, suburaxıcı və selötürücü qurğuların vəziyyəti yoxlanılmış, irihəcmli su anbarlarında bəndlərin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilmişdir.

Muxtar respublikanın səhiyyə müəssisələrində yaradılmış ixtisaslaşdırılmış tibbi yardım briqadalarının, yanğın-partlayış və potensial təhlükəli obyektlərinin fövqəladə hallarda hazırlığına xüsusi diqqət yetirilərək onların şəxsi heyəti ilə mütəmadi olaraq taktiki-xüsusi məşğələlər və təlimlər keçirilmişdir.

***Fövqəladə Hallar Nazirliyi bundan sonra da əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində səylə çalışacaq, muxtar respublikada mülki müdafiə işi müasir tələblər səviyyəsində qurulacaqdır.***

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti**

---

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Naxçıvanda İslam mədəniyyətinin mülki tikililəri – *karvansaraylar*

***Cənubi Qafqazı Yaxın Şərqlə bağlayan ən mühüm ticarət yollarının bir qolu da vaxtilə Naxçıvandan keçib. Araşdırmalar göstərir ki, muxtar respublika ərazisində olan Culfa, Qızılburun və Şahtaxtı keçidləri hələ eramızdan əvvəl VI-V minilliklərdə istifadə olunub. Orta əsrlərdə Şərqlə Qərbi bağlayan məşhur İpək Yolu da bu istiqamətdə davam edib. Əlverişli mövqelərdə yerləşdikləri üçün bu keçid məntəqələrindən indi də istifadə olunmaqdadır.***


Culfa karvansarayı


"Ölən şəhər"in qalıqları

Qədim dövrdə metal və qeyri-metal faydalı qazıntılarının, ipək və sənətkarlıq məmulatlarının mübadiləsində bu keçid məntəqələrindən geniş istifadə edilib.

Naxçıvan şəhərinin orta əsr mənbələrində "Nəqşicahan" adı ilə tanınması heç də təsadüfi deyil. Azərbaycanın mərkəzində yerləşən bu şəhər tarixin müxtəlif dövrlərində beynəlxalq ticarətin mərkəzi olub. 2017-ci ildə Naxçıvan şəhəri ərazisindən aşkar olunan arxeoloji materiallar bu qədim diyarımızda hələ eramızdan əvvəl V minillikdə mühüm mədəniyyət mərkəzlərinin olduğunu təsdiq edir. İslam dininin qəbulundan sonra bu şəhərin ticarət və mədəniyyət mərkəzi kimi əhəmiyyəti daha da artıb, şəhər əvvəlcə Naxçıvanşahlığın, daha sonra isə Atabəylər dövlətinin paytaxtı olub. Elxanilər, Azərbaycanın feodal dövlətləri və Azərbaycanda mərkəzləşmiş dövlətin yaranmasından sonra da Naxçıvan Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzi kimi tanınıb. Bu sahələrin inkişafı isə iqtisadi-mədəni əlaqələrin genişlənməsinə səbəb olub, mülki tikililərin, xüsusilə ticarət karvanlarının rahatlığını və təhlükəsizliyini təmin edən karvansarayların tikilməsini zərurətə çevirib. Karvansaraylar, əsasən, iki qrupa bölünürdü: şəhər karvansarayları və yolüstü karvansaraylar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qeydə alınması zamanı müəyyən olunub ki, Naxçıvandakı yolüstü karvansaraylar geniş şəbəkəyə malik imiş. Bu karvansaraylar Naxçıvan ərazisindən keçən ticarət yollarının istiqamətini də müəyyənləşdirməyə imkan verib. Karvansarayların bir qrupu Araz çayı vadisi boyunca salınan Xaraba Gilan, Culfa, Camaldın, Xarabaşəhər, Xok, Yurdçu və digər karvansaraylardan ibarətdir. Təbrizdən Culfaya, oradan isə İrəvan və Tiflisə gedən ticarət yolu üzərində olan bu karvansaraylar tacir və sənətkarların istirahəti üçün çox önəmli idi. Camaldın və Yurdçu karvansaraylarının böyük ərazini əhatə etmələri onlardan daha çox istifadə olunduğunu, bu yolun əhəmiyyətini bir daha göstərir. Dəstə kəndi yaxınlığındakı karvansaray bu yolun Ordubada qədər getdiyini təsdiq edir. Bununla belə Naxçıvanda müvəqqəti gecələmək üçün kiçik karvansaraylar da olub. Batabat meşəsindəki kiçikölçülü, ikiotaqlı karvansaray buna nümunə sayıla bilər.

Araz vadisi boyunca uzanan ticarət yolu qədim dövrlərdən istifadə edilib və orta əsrlərdə xüsusi əhəmiyyət daşıyıb. Bu istiqamətdə yerləşən karvansaraylar içərisində Culfa yaxınlığında yerləşən karvansaray xüsusilə əhəmiyyətli olub. Ziya-ül-Mülk və Şah Abbas körpülərinin qalıqları hazırda bu karvansarayın yaxınlığında yerləşir. Karvansaray vaxtilə ölkəmizin iqtisadi-mədəni həyatında mühüm rol oynayan "Ölən şəhər"in ərazisindədir. Torpaq altında qalan bu karvansarayın qalıqları 1974-1978-ci illərdə aparılan qazıntılar zamanı üzə çıxarılıb. Culfa karvansarayı indiyədək Azərbaycanda qeydə alınan tikililərdən ən böyüyüdür. Onun ümumi uzunluğu 37 metrdir. Qazıntılar zamanı müəyyən olunub ki, karvansarayın böyük bir qismi Culfa dəmir yolu çəkilərkən dağıdılıb. Araşdırmalar zamanı aşkar olunub ki, onun girişi Araz çayı tərəfdən olub. Araz çayının o biri tayında da eynitipli karvansarayın yerləşməsi onların bir-biri ilə əlaqəli olduğunu göstərir. Tədqiqatçıların fikrinə görə, körpü tikilməmişdən əvvəl bu iki karvansaray arasında bərə keçidi vasitəsilə əlaqə olub. Bu yerlər karvanların, həmçinin onların sahiblərinin, tacirlərin gecələməsi və istirahəti üçün olduqca əlverişli idi. Yəqin elə buna görə XVII əsr fransız səyyahı Tavarniye karvansarayları yeməkxanalı otellər adlandırıb.


Karvan yolu üzərində yaşayış yeri (Batabat)

Karvan ticarətində "Ölən şəhər"in də böyük rolu olub. Yaşayış yeri şimalda hündür dağ silsiləsi, cənubda Araz çayı, qərbdə qəbiristanlıqla məhdudlaşır. Yaşayış yeri ərazinin relyefinə uyğun olaraq, Araz çayının sol sahilində, ensiz zolaq şəklində qərbdən-şərqə doğru uzanır. Burada mövcud olmuş evlər tamamilə dağıdılıb, tikinti qalıqları ətrafa səpələnib. Abidənin üzərini başdan-başa bişmiş kərpic parçaları örtür. Görünür ki, tikililər, əsasən, bişmiş kərpicdən inşa olunub. Yaşayış yerində şirli və şirsiz gil məmulatına, mis sikkələrə və başqa maddi-mədəniyyət qalıqlarına təsadüf edilir. Şirli saxsı məmulatının az bir qismi Çin mənşəli seladon qablardan ibarətdir. Şübhəsiz ki, Gülüstan və Şah Abbas körpüsü yaxınlığında yerləşən bu yaşayış yeri orta əsr ticarətində mühüm yer tutub.

Karvan yolu üzərində yerləşən qədim yaşayış yerinin və tarixi abidələrinin haqqında orta əsr müəlliflərinin əsərlərində məlumatlar vardır. Bəzi mənbələrdə bu şəhər V əsrdən başlayaraq xatırlanır. Şəhər Atabəylər dövlətinin formalaşması və inkişafı ilə əlaqədar X-XII əsrlərdə, xüsusilə inkişaf edib. Şərq ölkələrini Qərblə bağlayan mühüm ticarət yolları məhz bu ərazidən keçirdi. Şəhər XVI əsrdə, Səfəvilər dövründə, xüsusilə inkişaf edib, ikinci intibah dövrü yaşayıb. Şah Abbas körpüsünün inşası da məhz bu dövrə təsadüf edir. Mənbələrin məlumatına görə, bu yaşayış məntəqəsi 10 kvartal, 4 min evdən ibarət olub, əhalisinin sayı isə 20-40 minə çatıb. Şəhər Qərbi Avropa ölkələri və Hindistanla geniş ticarət əlaqələri qurub, xarici ticarətdə xam ipək, zərgərlik və dulusçuluq məmulatları, tikmə və daş üzərində oyma nümunələri geniş yer tutub. XVII əsrin əvvəllərində şəhər Osmanlı imperiyasının hakimiyyəti altına keçib, lakin 1603-cü ildə yenidən Səfəvilərin tərkibinə qatılıb.

Karvansaraylar həm beynəlxalq, həm də daxili ticarətdə mühüm rol oynayıb. Hazırda muxtar respublikanın müxtəlif kəndlərində qalıqları qalan bu karvansaraylar Naxçıvan əhalisinin Azərbaycanın şimal və cənub bölgələri ilə əlaqə saxlaması üçün əlverişli şərait yaradıb.

***Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra muxtar respublika ərazisində türk-islam mədəniyyəti abidələrinə qayğı artıb, onlarla məscid, xatirə abidəsi və mülki tikililər bərpa edilərək xalqımızın istifadəsinə verilib.***

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Ordubad Rayon Xalq Teatrının yeni tamaşası olub



***Ordubad Rayon Mədəniyyət Evində Kazım Ziya adına Rayon Xalq Teatrının görkəmli maarifpərvər yazıçı və dramaturq, etnoqraf Rəşid bəy Əfəndiyevin “Tiflis səfəri” ikihissəli məzhəkəsi əsasında hazırladığı tamaşanın premyerası olub.***

Qeyd edək ki, Ordubad Rayon Xalq Teatrı 1964-cü ildə yaradılıb. 1972-ci ildən görkəmli səhnə ustası, Xalq artisti Kazım Ziyanın adını daşıyır. 1989-cu ildə teatrın 25 illiyi dövlət səviyyəsində geniş qeyd olunub. Bu münasibətlə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə həmin mədəniyyət müəssisəsi “Naxçıvan MSSR-in Əməkdar kollektivi” fəxri adına layiq görülüb. Onu da deyək ki, o zaman təsis olunan bu fəxri ad ilk dəfə Ordubad Rayon Xalq Teatrına verilib. Teatrın yetirdiyi bir çox sənətkar sonralar Naxçıvan teatrının səhnəsində də maraqlı obrazlar yaradıb və fəxri adlara layiq görülüblər. Müxtəlif illərdə xalq teatrının səhnəsində “Bəxtsiz cavan”, “Leyli və Məcnun”, “Arşın mal alan”, “Ər və arvad”, “Əkbər kimdir”, “Fərhad və Şirin”, “Beş manatlıq gəlin”, “Həmyerlilər”, “İtirilən sağlıq”, “Canlı tonqal”, “Kamança” və başqa maraqlı tamaşalar səhnəyə qoyulub.

“Tiflis səfəri” məişət lətifələri üzərində qurulmuş bir məzhəkədir. Tamaşanın rejissoru Günəş Ağayeva, musiqi tərtibatçısı Qasım Rəsulov, rəssamı Hikmət Əliyevdir.

Qeyd edək ki, bu tamaşa dramaturqun xalq teatrında səhnəyə qoyulan ikinci əsəridir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov kollektivi yeni tamaşa münasibətilə təbrik edib və onlara yaradıcılıq uğurları arzulayıblar.

**Əli RZAYEV**

## Dibçək gülləri təbiətin evimizə bəxş etdiyi gözəllik və sağlamlıqdır

***Doğma yurdumuzun güllü-çiçəkli çəmənləri, zirvəsi qarlı dağları, sərin bulaqları, gur şəlalələri göz oxşayır, insana xoş əhval-ruhiyyə bəxş edir. Həyatda heç bir şey insanı təbiət qədər sakitləşdirə bilməz. Xüsusən də yaşıllıqlar hər kəsə rahatlıq və zövq verir. Psixoloqlar da yaşıllığın insanı sakitləşdirdiyini və əsəblərə yaxşı təsir göstərdiyini deyir.***







Təbiətin bizə bəxş etdiyi ən böyük gözəlliklərdən biri də güllərdir. Qədim zamanlardan bəri gül sevgi və firavanlıq rəmzi sayılıb. Güllər hər dövrdə rəssam və şairlərin diqqətini çəkib, yaradıcılıqla məşğul olanların ilham mənbəyi olub. Gül-çiçəklərə qulluq isə onlara tamaşa etməkdən daha maraqlı və zövqoxşayandır. Bu iş insandan böyük səbir və zəhmət tələb edir. Güllərin insan aurasına təsiri də yüksəkdir. Onlar ev şəraitində də xüsusi yerə malikdir. Lakin hər kəs dibçəkdə gül əkməyi bacarmır. Bununla bağlı ümumi fikir söyləmək çətindir. Çünki insanlar kimi hər bir gülün də öz xüsusiyyəti və “xarakteri” var.

Yaz-yay aylarında bağ-bağçalar, həyətyanı sahələr gül-çiçəyə bürünür. Ancaq eyni halı qış fəslinə aid etmək olmaz. Qış aylarında insanlar evlərdə bəslənən dibçək güllərindən zövq almağa üstünlük verirlər. Dibçək güllərinin hər birinə xüsusi qulluq göstərilməlidir. Bu barədə oxucularımıza müfəssəl məlumat vermək üçün AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Bitki sistematikası şöbəsinin müdiri, biologiya elmləri doktoru, professor Əliyar İbrahimovla həmsöhbət olduq. O dedi ki, evdə yetişən bitkilərə həm də otaq bitkiləri deyilir. Otaq bitkilərini ilin bütün vaxtlarında ərsəyə gətirmək mümkündür. Ancaq çiçəkli olan vaxtlarda və çiçəkləmə fazasında olanda əkmək olmaz. Ən yaxşı əkin vaxtı isə mart və oktyabr aylarıdır. Gül əkmək üçün dibçəyə torpaqdan əvvəl çınqıl, balıqqulağı tökmək olar, qabın dibində isə ona tökülən suyu axıtmaq üçün deşik açılmalıdır. Gülü əkmək üçün hazırlanan torpaq keyfiyyətli, yumşaq və məhsuldar olmalıdır ki, əkdiyiniz bitki yaxşı inkişaf etsin. Mütəmadi olaraq suvarılmalı və yemləmə gübrələri tökülməlidir. Yaxşı olar ki, tərkibində mineral maddələr də olsun. Bunlara əməl olunmadıqda bitkinin kökü yaxşı inkişaf etmir, nəticədə, çürüyür. Qış vaxtı dibçəklər sərin yerə qoyulmalı və otağın temperaturu 15-16 dərəcə olmalıdır. Yaz-yay vaxtı isə dibçəkləri gündüşən yerdə və açıq havada saxlamaq lazımdır.

Müsahibim otaq bitkilərini zərərvericilərdən qorumağın yolları haqqında da danışdı. Onun sözlərinə görə, acı bibər və cəviz yarpağından hazırlanmış məhlullardan zərərvericilərə qarşı istifadə etmək olar. Həmçinin xam sabundan da istifadə məqsədəuyğundur. Bundan başqa, tütünü su ilə qarışdırıb bitkiyə tökmək mümkündür. Bu üsul da zərərvericiləri məhv edə bilir.

Əliyar İbrahimov dedi ki, bu gün insanlar arasında otaq bitkilərinin düşər-düşməzliyi ilə bağlı inanclar olsa da, əslində, belə bir şey mümkün deyil və elmdə yoxdur. Sadəcə, bəzi bitkilər var ki, onları çiçəkləyən vaxt otaqda saxlamaq düzgün deyil. Bu, həmin güllərin zəhərli maddələr ifraz etməsi ilə bağlıdır. Uşaqlar həmin bitkilərin yarpaqlarına toxuna və ağzına vura bilərlər. Tikanlı bitkilərin də uşaqlara ziyanvermə ehtimalı yüksək olduğu üçün onları otaqda saxlamaq məsləhət deyil. Bitkilər arasında suyu sevən və sevməyəni var. Məsələn, kaktus bitkisi suyu çox sevmir. Ona həftədə 1 dəfə su vermək kifayətdir. Ətirşah bitkisi də suya meyilli deyil.

Ətirşah, süsən, kaktus, liliya, əzvay, bənövşə, xlorafitum, kalanxoye, aqava çox yayılmış dibçək bitkiləridir. Dibçək güllərinin arasında sağlamlıq üçün faydalı olanlar da az deyil. Məsələn, əzvay bitkisinin yarpaqları mədə-bağırsağı, qan dövranı pozulmuş xəstələr üçün müalicəvi əhəmiyyət daşıyır, hətta onun yarpaqlarının yeyilməsi də məsləhət görülür. Xlorafitumun isə üç növü yayılıb. Onu daha çox mətbəxdə saxlayırlar, çünki onda müxtəlif iyləri və qazı udmaq qabiliyyəti vardır. Həmin bitkinin rəngbərəng açan gülləri, nazik və incə yarpaqları ətrafa gözəllik verir. Kaktus bitkisi isə şüalanmanın qarşısını aldığına görə kompüterdən çox istifadə edənlərə məsləhət görülür.

Həmsöhbətim qeyd edir ki, kiçikölçülü gülləri pəncərənin qarşısında birinci cərgəyə düzmək lazımdır. Hündürlər isə onlardan sonra yerləşdirilməlidir. Onda həm alçaq, həm də hündür güllər işıq və havanı lazımi qədər ala bilərlər. Güllər olan otaqda pəncərəyə çox qalın pərdə asmaq məsləhət görülmür. Otağın havasını tez-tez dəyişmək lazımdır. Qışda nəfəslik, yayda isə pəncərə açıq qoyulmalıdır. Güllər otağı qızdıran cihazlardan uzaqda saxlanılmalıdır. Köhnə dibçək güllərinin sonradan yerini dəyişmək də mümkündür. Ancaq əvvəlcə dibçəyi isti su ilə yumaq, qaynar suda saxlamaq lazımdır ki, içində kif qalmasın. Əgər dibçəyə şitil və ya kök buraxmış gövdə əkirsənsə, torpaq bir qədər bərk olmalıdır. Əkib qurtarandan sonra güllərin dibinə su töküb, kök atana qədər kölgə yerdə saxlamaq lazımdır. Yeni əkilən bitkilərin yeri hər il yaz vaxtı – aprel, may aylarında, iri güllərin yeri isə iki-üç ildən bir dəyişdirilməlidir. Qışda güllərə səhər vaxtı az, yayda isə axşam vaxtı çox miqdarda su tökülməlidir. Yayda gülləri hər gün, qışda isə gec-gec sulamaq gərəkdir. Güllərin suyu çox olarsa, tez solar. Bu bitkilərin hər zaman qayğısına qalmaq lazımdır.

Əliyar İbrahimovun sözlərindən belə aydın oldu ki, güllərə düzgün qulluq göstərilsə, onlar öz gözəlliyini və faydalılığını insanlardan əsirgəməz.

**Nail ƏSGƏROV**

***Naxçıvan Dövlət Universitetində Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsinə həsr olunmuş tədbir keçirilib.***

## Ali təhsil ocağında tədbir



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu il İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvanın ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı səsvermədə qalib gəlməsini böyük uğur kimi qiymətləndirib, bunu muxtar respublika gənclərinin dövlət quruculuğunda, ictimai-siyasi proseslərdə, sosial-iqtisadi, elmi-texniki tərəqqidəki fəal iştiraklarının nəticəsi kimi dəyərləndirib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində gənclər siyasəti ən yüksək səviyyədə həyata keçirilir və ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun onlara aşılanması gənclərimizin bugünkü ictimai həyatda fəallıqlarına şərait yaradır.

“Azərbaycanın uğurlu gənclər siyasəti” mövzusundakı çıxışında universitetin Tələbə-Gənclər Təşkilatının sədri Zümrüd Səfərova bildirib ki, Naxçıvanda həyata keçirilən dövlət gənclər siyasəti, onlar üçün yaradılan yüksək şərait, son illər naxçıvanlı gənclərin beynəlxalq arenalarda qazandıqları uğurlar, Azərbaycanı layiqincə təmsil etmələri sübut etdi ki, Naxçıvan şəhəri ölkəmizin Gənclər Paytaxtı olmağa layiqdir. 2018-ci il 31 yanvar tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən 6 gənc arasında öz adının olmasını, ümumən, muxtar respublika gəncliyinə verilən qiymət kimi dəyərləndirib.

Tədbir İncəsənət fakültəsi tələbələrinin ifalarında konsert proqramı ilə davam edib.

**Səadət ƏLİYEVA**

## Bilik yarışı keçirilib



Culfa şəhərindəki 3 nömrəli tam orta məktəbdə rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamı ilə bağlı rayonun ümumtəhsil məktəblərinin kitabxanaçıları arasında bilik yarışı keçirilib.

Yarışda 27 kitabxanaçı öz biliyini nümayiş etdirib. Hər bir kitabxanaçıya oxunması zəruri olan kitablarla bağlı 20 sual təqdim olunub.Yarış iştirakçıları hər sualı 1 dəqiqə vaxt ərzində cavablandırıblar.

Qızılca kənd tam orta məktəbinin kitabxanaçısı Arzu Həsənova birinci, Əlincə kənd tam orta məktəbinin kitabxanaçısı Vüsalə İsgəndərova ikinci, Culfa şəhər 3 nömrəli tam orta məktəbin kitabxanaçısı Fatma Nəzərova üçüncü yerlərə layiq görülüblər.

Qaliblərə rayon Təhsil Şöbəsinin diplomları və kitablar təqdim olunub.

**Fatma BABAYEVA**

## İdmançılarımız bürünc medal qazanıblar




***Bakı şəhərindəki Sərhədçi İdman Kompleksində cüdo idman növü üzrə 21 yaşadək gənclər arasında keçirilən Azərbaycan birinciliyinə yekun vurulub.***

Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də mübarizə aparıblar. Ən uğurlu nəticəni 100 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Abdulla İsmayılov əldə edib. Belə ki, cüdoçumuz ölkə birinciliyini üçüncü pillədə başa vurub.

Bakı şəhərindəki Əl Oyunları İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmə və gənclər arasında da ölkə birinciliyi keçirilib. Güləş Federasiyasının yetirməsi, güləşçimiz Abbas İsayev 80 kiloqram çəki dərəcəsində bürünc medal qazanıb.

Sonda hər iki idmançımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

## Rayon birinciliyi başa çatıb

***Şərur Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələr arasında karete-do üzrə rayon birinciliyi keçirilib.***



Rayon Gənclər və İdman İdarəsi və Karete-do Federasiyasının təşkil etdiyi birincilikdə 8 yaş qrupunda 60-dan çox qız və oğlan idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən 6-7 yaşlı oğlanlar arasında Həbib Əhmədov, 8-9 yaş qrupunda Səid Nəcəfli, 10-11 yaş qrupunda Seyran Quluzadə, 12-13 yaş qrupunda Ərtoğrul Məmmədbəyli, 14-15 yaş qrupunda Nurlan Məmmədov qalib adını qazanıblar.

Qızlar arasında isə 8-9 yaş qrupunda Gülay Ələkbərli, 10-11 yaş qrupunda Raziyə Dünyamalıyeva və 12-13 yaş qrupunda Fatimə Yusifova birinci yerə layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 183